**Rəsmiyyə Sabir qızı Abdullayeva**
**i.e.d.,dos. AMEA İqtisadiyyat İnstittutu**
**“İnklüziv sosial inkişaf” şöbəsinin müdiri**
**UOT:33; 338. JEL: A13; A19; F63; I31; I38**

# Əmək bazarının dövlət tənzimlənməsi dərəcəsinin ölçülməsi

***Xülasə***

*Tədqiqatın məqsədi – əmək bazarının dövlət tənzimlənməsi dərəcəsini ölçməkdir. Tədqiqatın metodologiyası - tədqiqat işində müqayisəli təhlil və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti - əmək bazarının tənzimlənməsi məqsədi ilə aparılan sosial-iqtisadi siyasət sahəsində qərarların qəbulu zamanı faydalı ola bilər. Tədqiqatın nəticələri – Azərbaycanda əmək bazarının dövlət tənzimlənməsi dərəcəsi artırılmalıdır. Tədqiqatın orijinallığı və elmi yeniliyi – ilk dəfə olaraq əmək bazarının dövlət tənzimlənməsi dərəcəsini ölçməyə imkan verən metodologiya hazırlanmışdır və 30 ölkə üzrə əmək bazarının dövlət tənzimlənməsi dərəcəsi ölçülmüşdür.*

***Açar sözlər:*** *əmək bazarı, liberallıq, dirijizm, minimum əmək haqqı, işsizlik, məşğulluq, ÜDM. sosial xərclər*

## Giriş

Əhalinin sosial müdafiəsinin gücləndirilməsində məşğulluğun təmin olunması mühüm yer tutur. Məşğulluğun təmin olunması isə əmək bazarının tənzimlənməsindən birbaşa asılıdır. İqtisad elmində əmək bazarı nəzəriyyəsinin əsasını Adam Smit, David Rikardo və Jan-Batist Sey qoymuşdur. XIX əsrin sonu, XX əsrin əvvəllərində isə Alfred Marşal, Con Meynard Keyns, Paul Samuelson, A.E.Kotlyar və başqa görkəmli iqtisadçılar əmək bazarını tədqiq etmişlər. Azərbaycan alimlərindən isə Ş.M.Muradov, R.Ş.Muradov, R.Ş.Muradov, G.A.Əzizova, F.Q.Musayeva və başqaları əmək bazarının müxtəlif problemlərini araşdırmışlar. Əmək bazarının bazar iqtisadiyyatı sistemindəki mühüm rolu ilə bağlı görkəmli iqtisadçı alim Ş.M.Muradov yazır: “əmək bazarı - əmtəə, kapital, qiymətli kağızlar, investisiya və sair bazarlar kimi, bazar iqtisadiyyatının mühüm tərkib hissələrindən birini təşkil edir” [7, s.138]. İstər klassik, istər neoklassik, istərsə də müasir iqtisadçılar tərəfindən əmək bazarı anlayışına müxtəlif təriflər verilsə də, demək olar ki, onlar mahiyyətcə bir-birindən o qədər də fərqlənmirlər. Onları ümumiləşdirərək əmək bazarına aşağıdakı kimi tərif vermək olar: Əmək bazarı dedikdə, iş qüvvəsinin təkrar istehsalı, mübadiləsi və istifadəsini təmin edən iqtisadi münasibətlər sistemi başa düşülür. İdarəetmə səviyyəsinə görə isə əmək bazarı iki modelə - liberal və sosialyönlü əmək bazarına bölünür. Liberal əmək bazarı modelində əmək münasibətlərinə dövlət az təsir göstərir. Burada əmək münasibətləri işəgötürənlərlə işçilərin özləri arasında tənzimlənir. Bu modelə ABŞ-ın əmək bazarı uyğundur.

Sosialyönlü əmək bazarı modelində isə dövlət əmək münasibətlərinə daha çox müdaxilə edir. Belə ki, dövlət iş şəraitinin yaxşılaşdırılması, əməkhaqqının ödənilməsi, məşğulluğun təmin olunması, əməyin mühafizəsi və s. məsələlərlə məşğul olur. Bu modelə Qərbi Avropanın bir sıra ölkələrində rast gəlmək olar. Əmək bazarının tənzimlənməsi məsələsi zaman-zaman tədqiqatçılar arasında diskussiya predmeti olmuşdur. Müasir dövrdə dövlət siyasəti daha çox əmək bazarının tənzimlənməsi istiqamətindədir [11]. Əmək bazarına dövlətin müdaxiləsi zəruri hesab edilir, çünki bazarlar mükəmməl deyil. Odur ki, hökumətlər, əməkçilərin hüquqlarını qoruyan təşkilatlar əmək bazarının tənzimlənməsində birbaşa iştirak etməlidirlər. “Əgər bazarlar sərbəst “buraxıldıqda” uğursuzluğa gətirib çıxarırsa, siyasətçilərin onları inkişaf etdirdiklərini görmək şübhəsiz ki, təəccüblü deyil” [1]. Əmək bazarının tənzimlənməsi həm də gəlirlərin bölüşdürülməsi, rifahın yüksəldilməsi nöqteyi-nəzərindən də mühüm əhəmiyyət kəsb edir. Çünki insanların bilik və qabiliyyətləri eyni deyildir. Bazar iqtisadiyyatı şəraitində, əsas problem hər bir əmək qabiliyyətli insanın yaşaması və rifahını yaxşılaşdırması (qanunlar çərçivəsində) üçün bərabər şəraitin yaradılmasıdır. İqtisadçı alim V.Q.Lebedevin fikrincə, cəmiyyətin bütün üzvlərinin sosial fəallığı inkişaf prosesində onların birbaşa

iştirakı, onlarda bütün ölkəyə sahiblik hissini reallaşdırır, yaradıcı əhval-ruhiyyə yaradır, işçini hərtərəfli inkişaf etdirir [15, s.64]. Odur ki, əhalinin əmək qabiliyyətli qruplarının məşğulluğunun təmin olunması, sahibkarlıq fəaliyyəti göstərə bilməsi üçün münbit şəraitin yaradılması, gəlirlərin səmərəli şəkildə yenidən bölgüsünə nəzarətin gücləndirilməsi, kəskin təbəqələşmə prosesinin aradan qaldırılması, orta təbəqənin formalaşdırılması və s. bazar iqtisadi sistemində dövlətin sosial siyasətinin tərkib hissəsini təşkil etməlidir. R.Kembell və L.S.Bryu hesab edir ki, "bazar iqtisadiyyatı simasız, hissiyyatsız mexanizmdir. Bu sistemdə yaranan gəlir bölgüsü cəmiyyətdə arzu olunandan daha çox bərabərsizlik yarada bilər. Bazar iqtisadiyyatı yalnız o şəxslərə böyük gəlir vəd edir ki, onların əməyi, anadangəlmə bacarıqları və fərdi səyləri nəticəsində əldə edilmiş təhsil və qabiliyyətləri olsun" [14, s.96]. İqtisadi fəallığını stimullaşdırmaqdan ötrü cəmiyyət üzvləri üçün hökumət tərəfindən ilkin bərabər şərait yaradılmalıdır. Bu ya dövlətin birbaşa müdaxiləsi ilə, ya da dövlətin özəl sektoru stimullaşdırma tədbirləri ilə ola bilər. İşçilərin sosial müdafiəsinin gücləndirilməsi, əmək məhsuldarlığının yüksəldilməsi üçün əməkhaqqının artırılması, məşğulluğun müəyyən sığortası zəruridir. Müasir dünyanın əsas problemlərindən biri də işsizlikdir. İşsizlik problemi son illərdə daha da aktuallaşmışdır. "İş yerini itirmək ailənin rifah halını təhdid altında qoyur, ona görə də insanlar işsizlikdən qorxurlar və əksəriyyət işsizlik riskini aşağı salmaqdan ötrü çox şeyi qurban verməyə hazırdırlar" [12, s.117].

İşsizliyin azaldılması baxımından əmək bazarına dövlət müdaxiləsi vacib hesab olunur. İşsizliyin azaldılması üçün dövlət aktiv və passiv üsullarla əmək bazarına müdaxilə edir. Aktiv üsullara yeni iş yerlərinin yaradılması, özünüməşğulluq proqramlarının reallaşdırıması, kadrların yenidən hazırlığı və s. daxildir. Passiv üsullara isə işsizliyə görə müavinətlərin verilməsi daxildir. İşsizlik müavinətlərinin verilməsi ilə bağlı mütəxəssislərin fikirləri fərqlidir. Bir sıra mütəxəssislər işsizlik müavinətinin insanları əlabaxımlığa öyrətdiyi qənaətindədirlər. "İşsizlik müavinətlərinin səxavətlə verilməsi, bir qayda olaraq, işsizin öz statusunu saxlamasında maraqlı olmasına gətirib çıxarır, ixtisaslı insanın əmək qabiliyyətini xeyli aşağı salır" [16, s.38]. Digər qrup tədqiqatçıların fikrincə də əmək bazarının tənzimlənməsinə çəkilən dövlət xərcləri iş qüvvəsinin əmək bazarında iştirak təşəbbüsünü azaldır [4]. Bəzi mütəxəssislər işsizlik müavinətinin verilməsini zəruri saysalar da, lakin problemin həllini aktiv metodlardan istifadədə görürlər. "İşsizlik müavinəti işsiz vətəndaşların yoxsulluq probleminin həlli üçün səmərəli vasitə kimi nəzərdən keçirilə bilməz. Bu problemin həlli aktiv formalar vasitəsilə həyata keçirilməlidir" [3, s.123]. Bir qrup mütəxəssis isə problemin həlli yollarını göstərir: "İşsizlərə dövlət yardımı ilə bağlı tədbirlər məşğulluq siyasətinin yalnız bir hissəsini təşkil etməlidir. Dövlət orqanları işsizlərin yenidən ixtisaslaşmasını və peşə hazırlığını təşkil etməklə, işçi qüvvəsinin əmək bazarının tələblərinə adaptasiyasına şərait yaratmalıdır" [8]. Göründüyü kimi, işsizliyin azaldılması ilə bağlı əksər mütəxəssislər passiv deyil, aktiv metodlardan istifadəyə üstünlük verirlər. Çünki işsizliyin ləğvinin aktiv metodları işsizlərin cəmiyyətə inteqrasiyasına, onların öz potensiallarını realizə etmələrinə, sosial müdafiənin gücləndirilməsinə şərait yaradır. Bunlarla yanaşı, işsizliyin aktiv üsullarla azaldılması dövlətin sosial yükünü də yüngülləşdirir.

**Metodologiya**

Bu araşdırmada təklif edilən Əmək Bazarının Liberallığı (Dirijistliyi) İndeksi (ƏBL(D)İ) 3 Alt-indeks (Əmək bazarına çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti, İşsizliyə çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti və Minimum əməkhaqqının adambaşına düşən ÜDM-ə nisbəti) əsasında hesablanır. Məqsəd – əmək bazarını dövlətin nə dərəcədə tənzimləməsini ölçməkdir. ƏBL(D)İ 0-1 aralığında dəyişir: "0" - əmək bazarının "mütləq sağlığını" (dövlətin əmək bazarına heç bir müdaxilə etməməsini), "1" – "mütləq solluğunu" (əmək bazarının tamamilə dövlət tərəfindən tənzimlənməsini) göstərir. Əmək bazarına çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti, İşsizliyə çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti və Minimum əməkhaqqı Alt-indeksləri (Vi -Vmin)/(Vmax - Vmin) düsturu ilə indeksləşdirilmişdir. Sonra Alt-indekslərin cəbri ortası kimi ƏBL(D)İ hesablanmışdır. Statistik

mənbə İƏİT-in 2015-ci il üçün məlumat bazasıdır. İlkin mərhələdə ƏBL(D)İ 30 ölkə üzrə hesablanmışdır. Aşağıda, 3 göstərici - Əmək bazarına çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti, İşsizliyin azaldılmasına çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti və Minimum əməkhaqqının adambaşına düşən ÜDM-ə nisbəti əsasında hesablanılmış ƏBL(D)sİ, İqtisadiyyatın Solluğu (Sağlığı) İndeksi ilə müqayisəli şəkildə təqdim olunmuşdur. ƏBL(D)İ-yə görə ən liberal (sağçı) ölkə Norveçdir (0,104). Baxdığımız 30 ölkə üzrə ən dirijist (solçu) ölkə Belçikadır (0,542) (cədvəl 1).

**Cədvəl 1.**

**ƏBL(D)İ və İS(S)İ, (2015)**

| ÖLKƏLƏR | ƏBL(D)İ | İS(S)İ | | ÖLKƏLƏR | ƏBL(D)İ | İS(S)İ |
|---|---|---|---|---|---|---|
| ABŞ | 0,139 | 0,245 | | İsveç | 0,169 | 0,272 |
| Almaniya | 0,328 | 0,324 | | İsveçrə | 0,152 | 0,188 |
| Avstraliya | 0,272 | 0,300 | | İtaliya | 0,250 | 0,319 |
| Avstriya | 0,231 | 0,256 | | Kanada | 0,221 | 0,238 |
| Azərbaycan | 0,128 | 0,273 | | Koreya | 0,209 | - |
| Belçika | 0,542 | - | | Lüksemburq | 0,271 | 0,270 |
| Böyük Britaniya | 0,210 | 0,227 | | Macarıstan | 0,235 | 0,298 |
| Çexiya | 0,177 | 0,255 | | Niderland | 0,425 | 0,317 |
| Çili | 0,150 | - | | Norveç | 0,104 | 0,265 |
| Danimarka | 0,239 | 0,190 | | Polşa | 0,221 | 0,346 |
| Estoniya | 0,161 | 0,288 | | Slovakiya | 0,170 | 0,344 |
| Finlandiya | 0,342 | 0,285 | | Sloveniya | 0,259 | 0,345 |
| Fransa | 0,480 | 0,416 | | Yaponiya | 0,150 | 0,298 |
| İspaniya | 0,496 | 0,344 | | Yeni Zelandiya | 0,267 | 0,244 |
| İsrail | 0,196 | 0,267 | | Yunanıstan | 0,269 | 0,362 |

Mənbə: https://data.oecd.org/socialexp/public-spending-on-labor-markets.htm, https://data.oecd.org/socialexp/public-unemployment-spending.htm#indicator-chart və http://economics.com.az/index.php/2015/item/1123-oelkaevi-naetidzaelaer.html əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Azərbaycan bu göstərici üzrə kifayət qədər sağdadır və tədqiq olunan 30 ölkə arasında ən liberal (sağçı) ikinci ölkədir. Fikrimizcə, ƏBL(D)İ üzrə Azərbaycanın sollaşması zərurəti var. Çünki ölkəmizdə istər əmək bazarına çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti, istər işsizliyin azaldılmasına çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti, istərsə də MƏH çox aşağıdır. Məlumat üçün bildirək ki, 2019-cu ildə DSK-nın məlumatlarına əsasən Azərbaycanda 251,6 min nəfər işsiz olduğu halda, məşğulluq xidməti orqanlarında rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 81 272 nəfər, işsizliyə görə müavinət alanların sayı isə 540 nəfər olmuşdur. Bu isə rəsmi işsiz statusu verilənlərin təxminən 150 nəfərindən birinin müavinət alması anlamına gəlir. ƏBL(D)İ üzrə nəticələr vizual formada Şkalada göstərilmişdir. Şkalanın həndəsi mərkəz göstəricisi (0,300) nisbi mərkəz göstəricisindən (0,249) böyükdür. Bu o deməkdir ki, araşdırılan ölkələrdə əmək bazarı sola nisbətən sağa daha meyillidir (şəkil 1). İlk baxışda, əmək bazarı üzrə Sub-indeksin şkalasında ölkələrin sola meyillənməli, yəni sol qütbdə yer almalı olduğu təsəvvürü yaranır. Lakin son illərdə dünyanın əksər ölkələrində aparılan liberallaşma islahatları və baxdığımız qrup üzrə ölkələrin əksəriyyətində əsasən

məşğulluq probleminin əsasən həll olunması, işsizliyin elə də ciddi xarakter daşımaması sağa meyillənməni şərtləndirir.

**Şəkil 1.**

**Əmək bazarının Liberallığı (Dirijistliyi) Sub-indeksi (2015)**




Mənbə: Şəkil müəllif tərəfindən tərtib edilmişdir.

Əmək bazarının səmərəliliyi dövlət tənzimlənməsi dərəcəsindən asılıdır. Əmək bazarına dövlət tənzimlənməsi bir sıra: əmək bazarına çəkilən dövlət xərcləri, işsizliyə çəkilən dövlət xərcləri, MƏH-in müəyyənləşdirilməsi və s. üsullarla baş verir. Əmək bazarının dövlət tənzimlənməsinin ən başlıca üsullarından biri dövlət maliyyəsidir. Aşağıdakı cədvəldə əmək bazarının tənzimlənməsinə ayrılan dövlət xərclərinin ÜDM-ə nisbəti əks olunmuşdur (cədvəl 2).

**Cədvəl 2.**

**Əmək bazarına çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti (2015)**

| № | Ölkələr | Əmək bazarına çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti, % | Alt-indeks | № | Ölkələr | Əmək bazarına çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti, % | Alt-indeks |
|---|---|---|---|---|---|---|---|
| 1 | ABŞ | 0,28 | 0,056 | 16 | İsveç | 1,82 | 0,364 |
| 2 | Almaniya | 1,51 | 0,302 | 17 | İsveçrə | 1,25 | 0,25 |
| 3 | Avstraliya | 0,91 | 0,182 | 18 | İtaliya | 1,8 | 0,36 |
| 4 | Avstriya | 2,23 | 0,446 | 19 | Kanada | 0,86 | 0,172 |
| 5 | Azərbaycan | 0,23 | 0,046 | 20 | Koreya | 0,67 | 0,134 |
| 6 | Belçika | 2,43 | 0,486 | 21 | Lüksemburq | 1,34 | 0,268 |
| 7 | Böyük Britaniya | 0,54 | 0,108 | 22 | Macarıstan | 1,15 | 0,23 |
| 8 | Çexiya | 0,62 | 0,124 | 23 | Niderland | 2,6 | 0,52 |
| 9 | Çili | 0,53 | 0,106 | 24 | Norveç | 0,97 | 0,194 |
| 10 | Danimarka | 3,33 | 0,666 | 25 | Polşa | 0,73 | 0,146 |
| 11 | Estoniya | 0,59 | 0,118 | 26 | Slovakiya | 0,53 | 0,106 |
| 12 | Finlandiya | 2,94 | 0,588 | 27 | Sloveniya | 0,76 | 0,152 |
| 13 | Fransa | 2,98 | 0,596 | 28 | Yaponiya | 0,32 | 0,064 |
| 14 | İspaniya | 2,52 | 0,504 | 29 | Yeni Zelandiya | 0,72 | 0,144 |
| 15 | İsrail | 0,68 | 0,136 | 30 | Yunanıstan | 0,74 | 0,148 |

Mənbə: https://data.oecd.org/socialexp/public-spending-on-labor-markets.htm əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən də göründüyü kimi, tədqiq olunan ölkələr üzrə Əmək bazarına çəkilən dövlət xərclərinin ÜDM-ə nisbətinin ən yüksək (3,33%) olduğu ölkə Danimarkadır. Baxılan ölkələr arasında bu götəricinin ən aşağı (0,23%) olduğu ölkə Azərbaycandır. Halbuki, ölkəmizdə əmək bazarının tənzimlənməsi ilə bağlı ciddi problemlər mövcuddur. Dövlətin əmək bazarını tənzimlənməsi üsullarından biri də işsizliyin azaldılmasına çəkilən dövlət xərclərinin ÜDM-ə nisbətidir. Aşağıdakı cədvəldə işsizliyə çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti əks olunmuşdur (cədvəl 3).

**Cədvəl 3.**

**İşsizliyin azaldılmasına çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti (2015)**

| № | Ölkələr | İşsizliyə çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti, % | Alt-İndeks | № | Ölkələr | İşsizliyə çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti, % | Alt-İndeks |
|---|---|---|---|---|---|---|---|
| 1 | ABŞ | 0,426 | 0,085 | 16 | İsveç | 0,464 | 0,093 |
| 2 | Almaniya | 1,028 | 0,206 | 17 | İsveçrə | 0,779 | 0,156 |
| 3 | Avstraliya | 0,665 | 0,133 | 18 | İtaliya | 1,701 | 0,340 |
| 4 | Avstriya | 0,987 | 0,197 | 19 | Kanada | 0,567 | 0,113 |
| 5 | **Azərbaycan** | **0,0** | **0,120** | 20 | Koreya | 0,280 | 0,056 |
| 6 | Belçika | 3,234 | 0,647 | 21 | Lüksemburq | 1,426 | 0,285 |
| 7 | Böyük Britaniya | 0,317 | 0,063 | 22 | Macarıstan | 0,471 | 0,094 |
| 8 | Çexiya | 0,632 | 0,126 | 23 | Niderland | 1,617 | 0,323 |
| 9 | Çili | 0,086 | 0,017 | 24 | Norveç | 0,341 | 0,068 |
| 10 | Danimarka | 0 | 0 | 25 | Polşa | 0,232 | 0,046 |
| 11 | Estoniya | 0,326 | 0,065 | 26 | Slovakiya | 0,425 | 0,085 |
| 12 | Finlandiya | 1,937 | 0,387 | 27 | Sloveniya | 0,747 | 0,149 |
| 13 | Fransa | 1,627 | 0,325 | 28 | Yaponiya | 0,196 | 0,039 |
| 14 | İspaniya | 3,106 | 0,621 | 29 | Yeni Zelandiy | 0,395 | 0,079 |
| 15 | İsrail | 0,311 | 0,062 | 30 | Yunanıstan | 1,038 | 0,208 |

Mənbə: https://data.oecd.org/socialexp/public-unemployment-spending.htm#indicator-chart əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən də göründüyü kimi, işsizliyin azaldılmasına çəkilən dövlət xərclərinin ÜDM-ə nisbətinin ən yüksək (3,23%) olduğu ölkə Belçika, ən aşağı (0,086) olduğu ölkə isə Çilidir. Tədqiqata cəlb etdiyimiz ölkələr arasında elə ölkələr var ki, orada işsizliyin azaldılmasına çəkilən dövlət xərcləri 0-dır. Məsələn, Danimarkada bu göstərici 0-a bərabərdir. Əmək bazarının dövlət tənzimlənməsi üsullarından biri də MƏH-in müəyyənləşdirilməsidir. “MƏH əmək münasibətləri sistemində işləyənlərin sosial müdafiəsində vasitə rolunu oynayır” [13, s.143]. MƏH-in müəyyən edilməsində BƏT: 1. Əməkçilər və onların ailələrinin tələbatını; 2. Ölkədə əməkhaqqının ümumi səviyyəsini; 3. Yaşayış dəyərini və ondakı dəyişiklikləri; 4. Sosial təminat müavinətlərini; 5. Başqa sosial qrupların müqayisəli həyat səviyyəsini; 6. İqtisadi inkişafın tələbləri daxil edilməklə iqtisadi amilləri, əmək məhsuldarlığının səviyyəsini, məşğulluğun arzu olunan səviyyəyə çatdırılmasını və saxlanılmasını tövsiyə edir [2, s. 390]. Həmin tövsiyədə MƏH-in müəyyən edilməsinin məqsədləri kimi qeyd olunmuşdur ki, əməkçilərin və onların ailələrinin yoxsulluğuna qarşı mübarizəyə və ehtiyaclarının təmin edilməsinə yönəldilən siyasət aparılmalı, muzdla işləyən şəxslər üçün MƏH-in minimum səviyyəsinə aid zəruri sosial müdafiə mexanizmi formalaşdırılmalıdır. Həmçinin MƏH-in

dəyərinin müəyyənləşdirilməsində iqtisadi, coğrafi şərait nəzərə alınmalıdır. MƏH - ixtisassız əməklə məşğul olan işçinin əməkhaqqı səviyyəsidir və iş qüvvəsinin təkrar istehsalı üçün normal şərait yaratmaq məqsədi daşıyır. Bu məbləğ qanunvericiliklə müəyyən olunur və hökumətin qərarıyla ildən-ilə (bəzi hallarda inflyasiyanın səviyyəsindən asılı olaraq ildə bir neçə dəfə) dəyişdirilə bilər. MƏH - əməyin ödənilməsi sahəsində minimum dövlət standartıdır. “MƏH-in tənzimlənməsi adətən 2 qaydada həyata keçirilir. 1-cisi qanunvericiliklə (Fransa, Niderland, Portuqaliya, İspaniya, Lüksemburq) tənzimlənir. Digər qrup ölkələrdə isə (Belçika, Yunanıstan) MƏH kollektiv razılaşmalar əsasında müəyyənləşdirilir. Almaniya, İtaliya, Danimarkada MƏH sahələr üzrə kollektiv razılaşmalarla müəyyənləşdirilir” [10, s.194]. MƏH-in müəyyənləşdirilməsində bir sıra amillər nəzərə alınır. Aşağıdakı cədvəldə bir sıra postsovet və inkişaf etmiş ölkələrdə MƏH-in müəyyənləşdirilməsinə təsir göstərən amillər öz əksini tapmışdır (cədvəl 4).

**Cədvəl 4.**

**MƏH-in tənzimlənməsində nəzərə alınan amillər**

| | Əmək- haqqı | Yaşayış minimumu | İstehlak qiymətləri | Məşğulluq | İqtisadi vəziyyət | Əmək məhsuldarlığı |
|---|---|---|---|---|---|---|
| **Keçid iqtisadiyyatlı ölkələr** | | | | | | |
| Rusiya | | + | | | | |
| Bolqarıstan | + | + | + | + | + | + |
| Çex Respublikası | | | | | | |
| Slovakiya | + | | + | | | |
| Macarıstan | + | + | + | + | + | + |
| Polşa | + | + | + | + | + | + |
| Estoniya | | | + | + | | + |
| Litva | + | + | + | + | + | |
| **İnkişaf etmiş iqtisadiyyata malik olan ölkələr** | | | | | | |
| Belçika | | | + | | | |
| Finlandiya | | | + | + | + | |
| Fransa | + | + | + | | + | |
| İrlandiya | + | | + | + | + | |
| İtaliya | | | + | | | |
| Lyuksemburq | + | | + | | | |
| İspaniya | + | | | + | + | + |
| Niderland | + | | + | | | |
| Portuqaliya | | + | + | | + | + |
| Böyük Britaniya | | | | | + | |
| Yaponiya | + | | + | | | |

Mənbə: Saget C. Fundamentals of Minimum Wage Fixing. p. 34-38

Cədvəldən də göründüyü kimi, post-sosialist ölkələrin əksəriyyətində (Rusiya, Bolqarıstan, Macarıstan, Polşa, Litva) MƏH-in müəyyənləşdirilməsində əsas amillərdən biri YM-dir. İnkişaf etmiş iqtisadiyyata malik olan ölkələrin əksəriyyətində isə MƏH-in müəyyənləşdirilməsində daha çox istehlak qiymətləri rol oynayır. Məsələn, Belçika, Finlandiya, Fransa, İtaliya, Yaponiya və s. buna misal ola bilər. 2019-cu ilin mart ayına kimi respublikamızda isə MƏH-in hansı sosial-iqtisadi göstəriciyə əsasən müəyyənləşdirilməsi bəlli deyildi. Lakin 08 fevral 2019-cu il tarixdə Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzaladı. Bu sərəncama əsasən MƏH 2019-cu il martın 1-dən YM-a bərabərləşdirilərək 180 manat müəyyən edildi [6]. Hazırda isə ölkəmizdə MƏH YM-i üstələyir. MƏH-in səviyyəsi iqtisadiyyatın solluğuna-sağlığına bilavasitə təsir edir, çünki bəzi başqa göstəricilər kimi, onun da yüksəldilməsi eyni vaxtda iqtisadiyyatın həm sollaşmasını, həm də sosiallaşmasını ifadə edir [5, s.17-18]. Qeyd etmək lazımdır ki, MƏH Alt-indeksi “Minimum əməkhaqqı sub-indeksi üzrə iqtisadiyyatın solluğu (sağlığı)-(2015)”-dən götürülmüşdür [9]. MƏH alt-indeksinə görə ən liberal ölkələr 0.050 göstərisi ilə Danimarka, Avstriya, İsveç və İsveçrədir. Ən dirijist ölkələrə isə Yeni Zelandiya (0.577), Fransa (0.519) aiddir. Azərbaycan MƏH Sub-indeksinə görə liberaldır, sağ qütbdə yer alır. Ölkəmiz bu Sub-indeks üzrə həm nisbi mərkəzdən, həm də mediandan sağdadır.

**Cədvəl 5.**

**Minimum əməkhaqqı alt-indeksi (2015)**

| Sıra | Ölkələr | MƏH | Sıra | Ölkələr | MƏH |
|---|---|---|---|---|---|
| 1 | ABŞ | 0,276 | 16 | İsveç | 0,050 |
| 2 | Almaniya | 0,477 | 17 | İsveçrə | 0,050 |
| 3 | Avstraliya | 0,501 | 18 | İtaliya | 0,050 |
| 4 | Avstriya | 0,050 | 19 | Kanada | 0,378 |
| 5 | *Azərbaycan* | 0,219 | 20 | Koreya Res. | 0,436 |
| 6 | Belçika | 0,494 | 21 | Lüksemburq | 0,261 |
| 7 | Böyük Britaniya | 0,459 | 22 | Macarıstan | 0,381 |
| 8 | Çexiya Respublikası | 0,280 | 23 | Niderland | 0,433 |
| 9 | Çili | 0,328 | 24 | Norveç | 0,050 |
| 10 | Danimarka | 0,050 | 25 | Polşa | 0,472 |
| 11 | Estoniya | 0,299 | 26 | Slovakiya | 0,320 |
| 12 | Finlandiya | 0,050 | 27 | Sloveniya | 0,474 |
| 13 | Fransa | 0,519 | 28 | Yaponiya | 0,347 |
| 14 | İspaniya | 0,362 | 29 | Yeni Zelandiya | 0,577 |
| 15 | İsrail | 0,391 | 30 | Yunanıstan | 0,451 |

Mənbə:http://economics.com.az/index.php/2015/item/1120-sub-indekslaer-uzrae-naetidzaelaer.html

## Nəticə

Aparılan təhlildən də aydın olduğu kimi, ƏBL(D)İ-yə görə ən liberal (sağçı) ölkə Norveçdir (0,104). Baxdığımız 30 ölkə üzrə ən dirijist (solçu) ölkə Belçikadır (0,542). Əvvəldə qeyd olunduğu kimi, Azərbaycan bu göstərici üzrə kifayət qədər sağdadır və tədqiq olunan 30 ölkə arasında ən liberal (sağçı) ikinci ölkədir. Çünki ölkəmizdə istər <u>əmək bazarına çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti</u>, istər işsizliyin azaldılmasına çəkilən dövlət xərclərinin ÜDM-ə nisbəti, istərsə də MƏH çox aşağıdır. Fikrimizcə, ƏBL(D)İ üzrə Azərbaycanın sollaşması zərurəti var. Yəni, ölkəmizdə <u>əmək bazarına və işsizlyin azaldılmasına çəkilən dövlət xərcləri</u> və MƏH artırılmalıdır.

## Ədəbiyyat

1. Bertola, G. Labor market regulation: Motives, measures, effects / G.Bertola. – Geneva: International Labor Office, – 2009, – 55 p.
2. Beynəlxalq Əmək Təşkilatı: Konvensiyalar və tövsiyələr / Beynəlxalq əmək Bürosu Cenevrə. Bakı: Şərq-Qərb mətbəəsi, – 1996. – 633 s.
3. Əliyev, M.N. Yoxsulluğa qarşı mübarizənin hüquqi problemləri / M.N.Əliyev. – Bakı: Səda nəşriyyatı, – 2006. – 184 s.
4. Government Spending and Economic Growth: [Electronic resource] Daniel Mitchell. – Massachusetts, 2005. URL: https://www.heritage.org/budget-and-spending/report/the-impact-government-spending-economic-growth
5. İS(S)İ – 2015, İqtisadiyyatın Liberallıq Potensialı / N.Müzəffərlinin elmi redaktəsi ilə. – Bakı: Avropa, – 2017, – 236 s.
6. Minimum aylıq əməkhaqqı 39% artırıldı: [Elektron resurs] / banker.az– Bakı, 2019. URL: https://banker.az/minimum-ayliq-%C9%99m%C9%99khaqqinin-39-artirildi-s%C9%99r%C9%99ncam/
7. Muradov, Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər / Ş.M.Muradov. – Bakı: Elm, – 2004.
8. Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunan müşavirə keçirilib: [Elektron resurs] / – Bakı,

2020. URL: https:// www.sosial.gov.az/3088
9. Sub-indekslər üzrə nəticələr: [Elektron resurs] /AMEA İqtisadiyyat İnstitutu – Bakı, 2015. URL: http://economics.com.az/index.php/2015/item/1120-sub-indekslaer-uzrae-naetidzaelaer.html
10. Şıxəliyeva, S. Minimum əməkhaqqı və işsizlik, İS(S)İ – 2015 İqtisadiyyatın liberallıq potensialı / S.Şıxəliyeva, C.Hüseynov. – Bakı: Avropa, – 2017. – 236 s.
11. Vivien, A.S. US and European Market Economies and Welfare Systems: The Differences In State Strategies, Political Institutional Capacity, and Discourse / A.S.Vivien. – Boston: Critique Internationale, – 2005. – 36 p.
12. В.Гимпельсон, Г.Монусова Страх безработицы: опыт межстрановых сопоставлений. – Москва: Вопросы Экономики, – 2010, № 2, – с.138-146.
13. Заработная плата в России / Под редакцией В.Е.Гимпельсона и Р.И.Капелюшникова. – Москва: ВШЭ, – 2008. – 144 с.
14. Кэмбелл, Р. Экономикс: Принципы, проблемы и политика / Р.Кэмбелл, Л.Б.Стенли. – Баку: издательство Азербайджан, – 1992. – 399 с.
15. Лебедев, В.Г Экономика: потенциал перестройки / В.Г.Лебедев, А.В.Бачурин, М.Н.Тимохин, А.Ф.Румянцев. – Москва: Издательство Мысль, – 1988. – 317 с.
16. Шестакова, Е.Е. Современный рынок труда в государствах Восточный Европы: проблемы и перспективы // – Москва: Труд за рубежом, – 2002, №4, – с. 12-27

***Расмия Сабир гызы Абдуллаева***

***Измерение степени государственного регулирования рынка труда***

***Резюме***

*Цель исследования-измерение степени государственного регулирования рынка труда. Методика исследования-в исследовательской работе использованы методы сравнительного анализа и обобщения. Прикладная значимость исследования-может быть полезна при принятии решений в области социально-экономической политики, проводимой с целью регулирования рынка труда. Результаты исследования-степень государственного регулирования рынка труда в Азербайджане должна быть повышена. Оригинальность и научная новизна исследования-впервые разработана методика, позволяющая измерить степень государственного регулирования рынка труда, измерена степень государственного регулирования рынка труда в 30 странах.*

***Ключевые слова**: рынок труда, либерализм, коммунизм, минимальная заработная плата, безработица, занятость, ВВП. социальные расходы*

***Rasmiyya Sabir Abdullayeva***

***Measuring the degree of government regulation in the labor market***

***Summary***

*The purpose of the research is to measure the degree of government regulation in the labor market. Research methodology - comparative analysis and generalization methods were used in the research. The applied significance of the research is that it can be useful when making decisions in the field of socio-economic policy aimed at regulating the labor market. Results of the research - the degree of government regulation in the labor market in Azerbaijan should be increased. The originality and scientific innovation of the research – for the first time, a methodology was created which allows measuring the degree of government regulation in the labor market, and the degree of government regulation in the labor market was measured in 30 countries.*

***Keywords:** labor market, liberalism, dirigisme, minimum wage, unemployment, employment, GDP, social expenditure*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 08.08.2022.***
***Çapa qəbul olunub: 15.08.2022.***